

## Ramazanova Elmira Məmmədəmin qızı – 85 il!

Ramazanova Elmira Məmmədəmin qızı 1934-cü il oktyabrın 28-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1952-ci ildə 134 №-li orta məktəbi qızıl medalla, 1957-ci ildə isə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) energetika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

E.M. Ramazanova 1965-ci ildə texnika elmləri namizədi, 1975-ci ildə Azərbaycanda və keçmiş SSRİ-də ilk qadın olaraq, texnika elmləri doktoru, 1978-ci ildə professor elmi adını almışdır. 2007-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir.

O, əmək fəaliyyətinə Azərbaycan Respublikası Energetika İdarəsində mühəndis vəzifəsindən başlayıb (1957–1959), sonralar – 1959–1992-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) ardıcıl olaraq, əyani aspirant, assistent, dosent, professor, axşam və qiyabi təhsil üzrə prorektor vəzifələrində işləmişdir. 1992-ci ildən hal-hazıra kimi həmin universitetin nəzdində olan "Neftin, qazın geotexnoloji problemləri və Kimya" Elmi-Tədqiqat İnstitutunun direktorudur.

E.M. Ramazanova neft-qaz və qaz-kondensat yataqlarının səmərəli işlənilməsini təmin etmək üçün kompleks təcrübi və elmi-tədqiqat işləri aparan tanınmış alimdir. Onun elmi fəaliyyəti çoxşaxəli olduğundan əsas tədqiqat işləri neft-qaz, qazkondensatçıxarmada yaranan mürəkkəbləşmələrə qarşı mübarizə, işlənmə rejiminin tənzimlənməsi üçün lazım olan parametrlərin seçilməsi, nanokompozitlərin alınması, nanotexnologiyaların işlənib hazırlanması və onların istehsalata tətbiqi, neftlə çirklənmiş torpaqların təmizlənməsi istiqamətində aparılmışdır. O, bir sıra beynəlxalq, o cümlədən ekoloji layihələrin rəhbəridir.

2004-cü ildən prof. E.M. Ramazanovanın rəhbərliyilə ölkəmiz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, "Xəzər, Qara dəniz regionunun tədqiqatlar, energetika və iqlim dəyişilməsi siyasəti" regional layihəsində təmsil olunur.

E.M. Ramazanova Ümumdünya Bankının dəstəyilə neftlə çirklənmiş torpaqların təmizlənməsi üzrə qrant layihənin rəhbəri və qalibi olmuşdur.

O, 400-ə yaxın elmi əsərin, o cümlədən 3 monoqrafiya, 11 tədris-metodiki vəsait, 16 elmi-metodik rəhbərlik, 60 patent və ixtiranın müəllifidir.

Elmira xanım elmi kadrların hazırlanması sahəsində də məhsuldar fəaliyyət göstərir. Onun rəhbərliyilə 25 elmlər namizədi və 2 elmlər doktoru dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir.

E.M. Ramazanova Afina Milli Kapodistrian Universitetinin "Avrasiya", "Azərbaycan neft təsərrüfatı" jurnalları və "Vışka" qəzetinin redaksiya heyətlərinin üzvü, "Neftin, qazın geotexnoloji problemləri və Kimya" Elmi-Tədqiqat İnstitutunun Elmi əsərlər məcmuəsinin Baş redaktoru, Azərbaycan Milli Neft Komitəsinin vitse-prezidentidir.

Elmira xanım elm və texnologiyaların inkişafındakı nailiyyətlərinə görə "Şərəf nişanı"ordeni (1986), əməkdar elm xadimi (1990), "SSRİ neft sənayesi əlaçısı" nişanı (1981), SSRİ-nin Fəxri neftçisi (1990), "Vyetnamın neft sənayesinin Fəxri xadimi" (2010), İqtisadi Əməkdaşlıq Təşkilatının "11-ci sammit ECO-2010" mükafatlarına layiq görülmüş və 2014-cü ildə yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

**Hörmətli Elmira xanım!**

Sizi yubileyiniz münasibətilə təbrik edir, cansağlığı və elmi fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

**"Neftin, qazın geotexnoloji problemləri və Kimya"**
**ETİ-nin kollektivi, "Azərbaycan neft təsərrüfatı"**
**jurnalının redaksiya heyəti və kollektivi**